**Azərbaycan Respublikası Bakı şəhəri**
**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**

# S Ə R Ə N C A M I

№ 257 "20" 10 2021-ci il

**Binəqədi rayonu, M.Ə.Rəsulzadə bələdiyyəsinin fəaliyyətinin səmərəli təşkilinin təmin edilməsi məqsədilə şəhid Ramiz Aboyev adına Mədəniyyət və istirahət parkında yerləşən yararsız tikilinin inzibati bina kimi istifadə edilməsi üçün bələdiyyənin mülkiyyətinə verilməsi haqqında**

Bakı şəhəri Binəqədi rayonu M.Ə.Rəsulzadə bələdiyyəsinin rəhbərliyi Rayon İcra Hakimiyyətinə müraciət edərək, formalaşdığı ilk gündən qüvvədə olan mövcud qanunvericiliyə uyğun olaraq bələdiyyənin mülkiyyətinə fəaliyyətlərini təmin etmək üçün lazımi inzibati bina və ya otaqlar verilmədiyini, yalnız Rayon İcra Hakimiyyəti başçısının tapşırığına əsasən 2000-ci ildə M.Ə.Rəsulzadə qəsəbəsi, Həsrət Ağamalıyev küçəsi 5 ünvanında Binəqədi Neft Qaz Çıxarma İdarəsinin balansında olmuş "Mədəniyyət Mərkəzi" ndə yerləşdirildiklərini bildirmişdir. Bununla belə, Binəqədi Neft Qaz Çıxarma İdarəsinin balansında olmuş, sonradan Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamına əsasən C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının mülkiyyətinə verilmiş həmin binada Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 20 fevral tarixli Fərmanına əsasən yenidənqurma və əsaslı təmir işlərinə başlanıldığından M.Ə.Rəsulzadə bələdiyyəsinin oranı tərk etdiyini və bunun nəticəsidir ki, 2019-cu ildən hazırkı dövrədək qəsəbənin Həsrət Ağamalıyev küçəsi 67 ünvanında fiziki şəxsə məxsus qeyri-yaşayış binasının 4-cü mərtəbəsində icarəyə götürdükləri sahədə fəaliyyət göstərdiklərini qeyd etməklə, M.Ə.Rəsulzadə bələdiyyəsinin fəaliyyətinin səmərəli təşkilinin təmin edilməsi üçün M.Ə.Rəsulzadə qəsəbəsində, şəhid Ramiz Aboyevin adını daşıyan və faktiki halda bələdiyyənin idarəetməsində olan mədəniyyət və

istirahət parkında yerləşən, yararsız tikilinin inzibati bina kimi istifadə edilməsi məqsədilə bələdiyyənin mülkiyyətinə verilməsi xahiş edilmişdir.

M.Ə.Rəsulzadə bələdiyyəsinin inzibati ərazisində yerləşən Ramiz Aboyev adına Mədəniyyət və istirahət parkı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 13.04.2017-ci il tarixli, 148 saylı Qərarının 2-ci bəndinə əsasən "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı" ndan çıxarılmış və Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 10.09.2019-cu il tarixli, 175 saylı Sərəncamı ilə İcra Hakimiyyətinin tabeliyinə götürülmüşdür.

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli, 770-IQ nömrəli Qanununun 4-cü maddəsinə əsasən dövlət mülkiyyətində olan və bələdiyyələrin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri mənzil-kommunal, sosial və mədəniyyət obyektləri, əhalinin ümumi istifadəsində olan obyektlər və digər dövlət əmlakı onların mülkiyyətinə verilir. İlk növbədə bələdiyyənin mülkiyyətinə onların fəaliyyətini təmin etmək üçün lazımi inzibati binalar, otaqlar və avadanlıqlar verilir.

"Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli, 770-IQ nömrəli Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2000-ci il tarixli, 253 nömrəli Fərmanının 3-cü bəndinə uyğun olaraq bələdiyyələrin fəaliyyətini təmin etmək məqsədilə lazımi inzibati binaların, otaqların və avadanlıqların verilməsinin təşkili, həmçinin yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır.

Yuxarıda qeyd olunanları, Binəqədi rayonu, M.Ə.Rəsulzadə bələdiyyəsinin 21.05.2021 ci il tarixli, RB\278 saylı müraciətini və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsini, "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsini, "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanının 3-cü bəndini nəzərə alıb, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.16.9 və 6.8-ci bəndlərinə əsaslanaraq

**Q ə r a r a   a l ı r a m:**

**1.** Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 08 iyun 2021-ci il tarixli, 110 saylı Sərəncamına əsasən Binəqədi rayonu, M.Ə.Rəsulzadə bələdiyyəsinin idarəetməsinə verilmiş Ramiz Aboyev adına Mədəniyyət və istirahət parkında yerləşən, 500 kv.m inzibati bina kimi istifadə edilməsi üçün M.Ə.Rəsulzadə bələdiyyəsinin mülkiyyətinə verilsin.

**2.** Nəzərə alınsın ki, yararsız vəziyyətdə olan həmin binanın əsaslı şəkildə təmir edilərək, M.Ə.Rəsulzadə bələdiyyəsinin inzibati binası kimi istifadəyə tam yararlı vəziyyətə gətirilməsi yerli (bələdiyyə) büdcənin vəsaiti hesabına həyata keçirilsin.

**3.** M.Ə.Rəsulzadə bələdiyyəsinə tövsiyə edilsin ki, təmirə başlanacaq inzibati binasının ətrafında abadlıq, quruculuq və yaşıllaşdırma işlərinin də həyata keçirilməsini təmin etsin.

**4.** Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə tapşırılsın ki, Sərəncamın surətini məlumat və icra üçün M.Ə.Rəsulzadə bələdiyyəsinə və bütün aidiyyəti təşkilatlara göndərilməsini təmin etsin.

**5.** Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi İdarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri İskəndər Cahangir-zadəyə həvalə edilsin.

**Elxan Allahverdiyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayonu İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**